# Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın neftdən asılılığını azaldır

***Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz son 18 ildə sürətli inkişaf yolu keçib. Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr reallaşdırılıb. Bütün bunların nəticəsində iqtisadiyyat 3 dəfədən çox artıb, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılıb. İndiyədək ölkədə verilən 513 investisiya təşviqi sənədi üzrə layihələrin ümumi dəyəri 5 milyard manata yaxınlaşıb ki, bu da əsasən regionlarda həyata keçirilən layihələrin payına düşüb.***



Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2022-ci ilin yanvar-may aylarında 34,9 milyard manatlıq və ya 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çox sənaye məhsulu istehsal edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, neft-qaz sektorunda məhsul istehsalı 1,1 faiz, qeyri neft-qaz sektorunda isə 14,3 faiz artıb. Hesabat dövründə əsas kapitala 4915,5 milyon manat məbləğində vəsait yönəldilib.

Neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 23,6 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 14,6 faiz artıb. İstifadə olunmuş vəsaitin 2829,6 milyon manatı və ya 57,6 faizi məhsul istehsalı sahələrinə, 1799 milyon manatı (36,6 faizi) xidmət sahələrinə, 286,9 milyon manatı (5,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş vəsaitlərin 3657,3 milyon manatını və ya 74,4 faizini daxili vəsaitlər təşkil edib.

Hesabat dövründə qeyri-neft sektorunun inkişafında sənaye zonaları və parkları mühüm rol oynayıb. İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, agentlik ölkədə fəaliyyət göstərən 6 sənaye parkının (Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları), 4 sənaye məhəlləsinin (Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələri), habelə 51 aqroparkın fəaliyyətinin təşkili, idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayaraq, həyata keçirilməsini gerçəkləşdirib.



Hesabat dövründə sənaye zonalarında istehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, dünyanın 40-dan çox ölkəsinə ixrac olunub. Bu sektorda sahibkarlar üçün yaradılan əlverişli biznes və investisiya mühitionların sənaye zonalarına marağını artırıb. Belə ki, indiyədək sənaye zonalarında 104 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i fəaliyyətə başlayıb.

Sahibkarlar tərəfindən bugünədək sənaye zonalarına 6,4 milyard manatdan çox investisiya yatırılıb və 10 mindən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manatadək investisiyanın yatırılması və 2600-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub. Sənaye zonaları üzrə 2022-ci ilin I rübü daxil olmaqla ümumilikdə 6,5 milyard manatdan çox məhsul istehsal edilib, bunun 2,1 milyard manatı (təqribən 32 faizi) ixrac olunub.

Hazırda ölkədə mövcud sənaye parklarında rezidentlər üçün vergi və gömrük güzəştləri tətbiq edilir. Belə ki, rezidentlər qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Eyni zamanda, rezidentlər dövlət vəsaiti hesabına hazır infrastruktur sistemi ilə təmin edilirlər.

İşğaldan azad edilmiş ərazilərimizin bərpası və Qarabağın dirçəldilməsi məqsədilə dövlətimizin başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam, 2021-ci il oktyabrın 4-də isə 200 hektar ərazini əhatə edən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı (Cəbrayıl rayonunda) yaradılıb.

Ötən müddətdə bu sənaye parklarında quruculuq işləri mərhələli şəkildə və plana uyğun olaraq həyata keçirilib. Hər iki sənaye parkının ərazisi tam olaraq minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Ağdam Sənaye Parkında mobil tipli şəhərcik salınıb. Burada rezidentlər üçün konteyner tipli ofis, yataqxana, tibb məntəqəsi, mağaza, aptek və yeməkxana təşkil edilib, əraziyə asfalt yol çəkilib, abadlıq işləri aparılıb. Parkın ərazisində "Kapital Bank"ın və ABB-nin bankomatları quraşdırılıb. Ödəmə terminalı (Milli Ön) yerləşdirilib. Sənaye parkının ərazisində tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluq elektrik xətti çəkilib və 630 kilovoltluq komplekt transformator məntəqəsi quraşdırılıb.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da mobil tipli şəhərcik salınıb. Mobil şəhərcikdə rezidentlər üçün konteyner tipli 20 nəfərlik yataqxana, 20 nəfərlik yeməkxana, 2 sanitar qovşağı, anbar, ərzaq mağazası, ofis, bərbərxana, aptek və tibb məntəqəsi quraşdırılıb.

Sənaye Parkının rezidenti olmaq üçün İqtisadi Zonaların İnkişafı Agentliyinə təqdim edilən layihələr hazırda dəyərləndirilir. Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ölkədə fəaliyyət göstərən sənaye parklarında tətbiq edilən güzəştlərlə yanaşı, bir çox əlavə stimullaşdırıcı tədbirlərin də həyata keçirilməsi nəzərdə tutulur. Belə ki, azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncama əsasən, bu yerlərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin verilməsi, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi kimi əlavə güzəştlər də planlaşdırılır.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 21 iyun.- S.9.